**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ MİLLİ İSTİQLAL PROBLEMİ (1991-2011-ci illər)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Vəfa Heydar qızı Hüseynzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2023**

Dissertasiya işi Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin Filologiya elmləri kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Almaz Əli qızı Məmmədova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Rəhim Nadir oğlu Əliyev** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Əzizağa Bayram oğlu Nəcəfov** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Məlahət Ramiz qızı Babayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü,<br>filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**Leyla Məcid qızı İmaməliyeva** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

XX əsr müxtəlif siyasi hadisələrin bolluğu və zənginliyi ilə seçilən, bəzən də birmənalı qəbul edilməyən fikir və düşüncələrin toqquşduğu bir dövr kimi xarakterizə olunur. Bu mənada ədəbi hadisə kimi daha çox diqqəti cəlb edən müstəqillikdən sonra yaranan nəsr əsərlərində istiqlal məfkurəsinin bədii ifadəsində milli-mənəvi dəyərlərin önə çəkilməsinin araşdırılması ədəbiyyatşünaslığın qarşısında duran mühüm vəzifələrdəndir. Yazılan elmi işdə məhz bu məsələ diqqət mərkəzində saxlanılır. Sovet dövründə uzun müddət adı ehtiyatla çəkilən milli-mənəvi dəyərlər müstəqillikdən sonra ədəbi prosesdə əsas yer tutmağa və möhkəmlənməyə başladı. Bu baxımdan dissertasiya, çağdaş Azərbaycan nəsrinin həm də ideoloji cəhətdən obyektiv qiymətləndirilməsində əsaslı rol oynaya bilər.

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Dissertasiyada Azərbaycan müstəqilliyini elan etdiyi ilk ildən, yəni 1991-ci ildən etibarən sonrakı iyirmi il ərzində qələmə alınmış bədii nəsr nümunələri tədqiqata cəlb edilmişdir. Milli istiqlalın əldə edilməsi ədəbiyyat üçün də siyasi imkan və şərait yaratdı. Bu dövrdə mədəni-mənəvi dəyərlərə yeni baxış bucağından nəzər salmaq, hər cür ideoloji təsirlərdən uzaq yanaşma dissertasiyada mühüm əhəmiyyət kəsb edir. Yaranmış bədii örnəklər janr olaraq hekayə, povest və romanlar çərçivəsində araşdırılır. Milli dövlətçilik, vətən, xalq taleyinə münasibət məsələsinin yeni biçimdə qoyuluşu tarixi-müqayisəli, kontekstdə nəzərdən keçirilərək ədəbiyyatın milli ideologiyanın formalaşmasındakı rolu analitik metoda əsasən araşdırılır. Tədqiqat işində çağdaş Azərbaycan ədəbiyyatının gərgin, sosial-siyasi cəhətdən böhranlı dövründən, milli özünüdərk prosesinin gətirdiyi yeni düşüncəli, yeni məzmunlu nümunələrin aktual əhəmiyyətindən bəhs edilir. Təqdim olunan dissertasiyanın mövzusu bu baxımdan elmi əhəmiyyət kəsb edir. Ayrı-ayrı yazıçıların yaradıcılıqları haqqındakı bəzi ədəbi-tənqidi məqalələr istisna olmaqla mövzuya konkret tədqiqatlar həsr olunmadığından bu mövzuya kompleks

şəkildə müraciət zəruridir. Bu məsələnin geniş və sistemli araşdırılmasına ehtiyac olduğunu nəzərə alaraq konkret bədii nümunələrin müasir elmi-nəzəri prinsiplər baxımından təhlilə cəlb olunması məqbul hesab edilmiş, tədqiqatda qarşıya qoyulan məsələlərin müəyyən dərəcədə həllinə çalışılaraq dövrün tələbləri və zövqlər baxımından diqqəti cəlb etməyən əsərlərin də konkret bir dövrün ədəbiyyatını öyrənmək baxımından əhəmiyyətini nəzərə alaraq dissertasiyada yeri gəldikcə ədəbi prosesin ayrılmaz parçalarından olan, ədəbi tənqidin nəzərdən qaçırdığı, kölgədə qalan, az tədqiq olunmuş və ya tədqiq olunmamış, milli istiqlal məfkurəsinin bədi inikası, işlənməsi baxımından xüsusi tədqiq tələb edən əsərlər üzərində dayanılmış, təhlillər aparılmışdır. Bu da tədqiqatın aktuallığını və elmi yeniliyini özündə ehtiva edən amillərdən hesab edilir. Dissertasiyada milli istiqlal uğrunda mübarizənin bədii inikas probleminin bədii həllində ədəbiyyatın imkanları önə çəkilir. Ayrı-ayrı ədəbi şəxsiyyətlərin fəaliyyəti ön planda verilərək soykökə qayıdış, milli özünüdərkin oyanış ədəbiyyatı kimi ortaya çıxır. Yeni, milli, cəsarətli ideyalarla zəngin ədəbiyyat ərsəyə gəlir.

Dissertasiyanın aktuallığını şərtləndirən məqamlardan biri də tədqiqatın milli-nəzəri müstəvidə araşdırılması, zaman-zaman ədəbiyyatşünaslığın yazı tərzinə çevrilmiş ənənəvi stereotiplərin rədd və inkar olunmasıdır. Bu cəhət bütün tədqiqat boyu qabarıq şəkildə özünü göstərir.

Azərbaycan ədəbiyyatının, o cümlədən nəsrinin müxrəlif problemlərinə və şəxsiyyətlərinə həsr olunmuş dissertasiya işlərində, monoqrafiyalarda, məqalələrdə bu və ya digər şəkildə istiqlal problemi də tədqiqat obyektinə çevrilmişdir. Lakin bu tədqiqatlar geniş planda daha çox poeziya sahəsində özünü büruzə verir.

Nəsr sahəsində isə Azərbaycan ədəbiyyatının müstəqillik dövrü haqqında Yavuz Axundlu[1], Vaqif Yusifli[2], Tofiq

---

[1] Axundlu, Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər: 1930-2000 / Y.Axundlu. - Bakı: Adiloğlu, – 2005. - 550 s.

[2] Yusifli, V. 2003-cü ilin nəsri // – Bakı: Azərbaycan jurnalı, –2005. №4, – s.156-166

Hüseynoğlu[3], Təyyar Salamoğlu[4], Tehran Əlişanoğlu[5], Elçin Mehrəliyev[6], Əhməd Sami El Aydi[7], Nərgiz Cabbarlı[8], İradə Musayeva[9] , Salidə Şərifova[10] və digər tənqidçi və ədəbiyyatşünaslar müəyyən tədqiqatlar aparmışlar.

Azərbaycan ədəbiyyatının, o cümlədən bədii nəsrinin müxtəlif problemlərinə həsr olunmuş, məcmuə və toplularda məqalələrlə çıxış etmiş yeri gəldikcə bu haqda fikirlər söylənmişdir. Ayrı-ayrı yazıçıların yaradıcılıqlarına həsr olunmuş müxtəlif səpkili monoqrafik araşdırmalarda yeri gəldikcə yeni nəsrin üç əsas aparıcı janrı – hekayə, povest və romanlar haqqında müəyyən mülahizələr söylənmişdir. Müasir Azərbaycan ədəbiyyatının ümumi nəzəri məsələlərinə dair dissertasiyalarda yeri gəldikcə roman janrına da müəyyən münasibət bildirilmişdir.

Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasının hazırladığı iki cildlik "Müasir Azərbaycan ədəbiyyatı"[11] adlı dərslikdə, AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı"[12] iki cildlikdə,

---

[3] Hüseynoğlu, T. Söz – tarixin yuvası / T.Hüseynoğlu. – Bakı: Azərnəşr, – 2000. – 166 s.

[4] Salamoğlu, T. İsmayıl Şıxlının bədii nəsri (monoqrafiya)/ T.Salamoğlu. – Bakı: NPŞ MMC, –2014. – 176 s.

[5] Əlişanoğlu, T. Müstəqillik illərində Azərbaycan ədəbiyyatı (dərslik) / T.Əlişanoğlu. – Bakı: Qanun, I hissə, – 2013. – 216 s.

[6] Mehrəliyev, E. Müharibə və ədəbiyyat./ E.Mehrəliyev. – Bakı: Azərnəşr. – 2000. –228 s.

[7] Elaydi, Ə.S. Müstəqillik dövrü Azərbaycan romanı : mövzu, problematika və sənətkarlıq məsələləri (1991-2005)/ Ə.S. Elaydi– Bakı: Nurlar, – 2017. –191 s.

[8] Cabbarlı, N. Yeni nəsil ədəbiyyatı/ N.Cabbarlı. –Bakı: Qanun, – 2008. – 218 s.

[9] Musayeva, İ. Roman müəllifləri və roman qəhrəmanları // Ədəbiyyat qəzeti. – 2015, 11 aprel, – s. 6-7.

[10] Şərifova, S. Ədəbi prosesə nəzəri baxış: Tənqidi məqalələr -2003-2005-ci illər / S.Şərifova. – Bakı: Maarif, – 2006. – 210 s.; Şərifova, S. Klassiklər və müasirlər söz müstəvisində/ S.Şərifova. – Bakı: Elm və təhsil, – 2018. – 568 s.

[11] Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik) [2 cilddə] / –Bakı: Bakı Universiteti nəşriyyatı, –c.2. – 2007

[12] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı [2 cilddə] / – Bakı: Elm. – 2016.

Tehran Əlişanoğlunun "Müstəqillik illəri Azərbaycan ədəbiyyatı"[13] adlı ali məktəblərin magistratura pilləsi üçün dərslikdə müstəqillik dövrü Azərbaycan bədii nəsrində istiqlal problemi müxtəlif kontekstlərdə təhlil obyektinə çevrilmişdir.

Bütün bu tədqiqarlara baxmayaraq indiyədək bəhs olunan dövrün Azərbaycan bədii nəsrində istiqlal problemi sistemli şəkildə araşdırılmamışdır. Müdafiəyə təqdim olunan dissertasiya işi məhz bu zərurətdən yaranmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyada dövrün yazıçılarından Sabir Əhmədli, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, İsi Məlikzadə, Vidadi Babanlı, Əzizə Cəfərzadə, Anar, Elçin, Əli Səmədli, Ağarəhim Rəhimov, Elçin Hüseynbəyli, Orxan Fikrətoğlu, Zaman Qarayev, Mustafa Çəmənli, Fikrət Qoca, Əlisa Nicat, Aqil Abbas, Sabir Rüstəmxanlı, Fəxri Uğurlu, Mehriban Vəzir, Elçin Mehrəliyev, Yunus Oğuz, Nasir Mənzuri və başqalarının əsərləri tədqiqat obyekti kimi götürülmüşdür. 1991-2011-ci illər Azərbaycan bədii nəsrində İstiqlal məfkurəsinin bədii ifadəsi, milli-mənəvi dəyərlərin önə çəkilməsi, müxtəlif aspektlərdən araşdırılaraq təhlil olunması isə tədqiqatın predmetini təşkil edir

**Tədqiqatın məqsəd və vəzifələri.** Çağdaş Azərbaycan nəsrində istiqlal məfkurəsinin dissertasiyada göstərilən (1991-2011) zaman kəsiyində nəsrimizin nail olduğu özəlliklərin aşkarlanması işin əsas məqsəd və vəzifərindəndir. Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün əsas etibarilə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə çalışılmışdır:

- Araşdırmaya cəlb olunan bədii nümunələri Azərbaycanın müstəqillikdən sonrakı iki onilliyində — 1991-2001 və 2001-2011-ci illərdə yaranmış mövcud bədii örnəklərlə müqayisəli şəkildə dəyərləndirmək;
- 1991-2011-ci illərdə yaranmış Azərbaycan bədii nəsrini janr xüsusiyyətləri kontekstində təhlil obyektinə çevirmək;
- 1991-2011-ci illərdə yaranmış Azərbaycan hekayəsinin problematik cəhətdən səciyyələndirərək təhlillərini aparmaq;

[13] Əlişanoğlu, T. Müstəqillik illərində Azərbaycan ədəbiyyatı (dərslik) / T.Əlişanoğlu. – Bakı: Qanun, – hissə 1. – 2013. – 216 s.

- Çağdaş hekayələri sosial-siyasi ziddiyyətlər müstəvisində səciyyələndirmək;
- 1991-2011-ci illərdə yaranmış Azərbaycan povestlərini mövzu-problematika baxımından təhlil obyektinə çevirmək;
- Çağdaş povestlərdə tarixi gerçəkliyin, həqiqətlərin epik planda ifadəsi sənətkarlıq məsələləri kontekstində tədqiqata cəlb etmək;
- Çağdaş ədəbiyyatın milli ideologiyanın formalaşmasında rolu, milli dövlətçilik, vətən, xalq taleyinə münasibət məsələsinin yeni biçimdə qoyuluşunu araşdırmaq;
- 1991-2011-ci illərdə yaranmış Azərbaycan romanlarında özünəqayıdış, istiqlal məfkurəsinin bədii ifadəsi, milli-mənəvi dəyərlərin önə çəkilməsi məsələlərini, analitik metoda əsaslanaraq tədqiqata cəlb etmək;
- Çağdaş Azərbaycan romanlarında cəmiyyətin inkişafı, genetik yaddaş, sosial ədalətsizlik və s. məsələləri forma-struktur cəhətdən araşdırıb təhlil obyektinə çevirmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin yazılmasında elmi, nəzəri və bədii materiallara, anoloji araşdırmaların elmi nəticələrinə istinad edilmiş, Azərbaycan bədii nəsrinin iyirmi illik inkişaf yolu sistemli, müqayisəli şəkildə təhlil obyektinə çevrilmişdir. Tədqiqatda qoyulan problemin xarakterinə uyğun olaraq müxtəlif qayəli bədii sistemlərin müqayisəsinə dayanan tarixi-müqayisəli və tipoloji təhlil üsullarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan müddəalar.** Dissertasiya çağdaş Azərbaycan bədii nəsrinin üç əsas qolunu, hekayə, povest, roman janrlarını milli istiqlal probleminin qoyuluşu, sosial–siyasi və milli-mənəvi ideallar kontekstində araşdırmağı və sistemləşdirməyi nəzərdə tutur:

- 1991-2011-ci illərdə yaranmış Müasir Azərbaycan nəsrində milli istiqlal məsələsinin qoyuluşu;
- Çağdaş Azərbaycan hekayəsi istiqlaliyyət uğrunda mübarizənin bədii əksini verən ən çevik janr kimi;
- Hekayələrin mövzu-ideya müasirliyinə diqqətin cəlb edilməsi;
- Povestlərdə mənəvi-əxlaqi dəyərlər kontekstinin

aşkarlanması;

- Povestlərdə tarixi gerçəklik və tarixi reallığın epik planda bədii ifadəsi;
- Povestlərdə vətən, xalq və milli dövlətçilik ideyalarının yeni biçimdə qoyuluşu;
- İstiqlal ideyalarının geniş epik məcrada təqdimatı;
- Azərbaycan romanı siyasi-ideoloji proseslər və milli-mənəvi ideallar kontekstində.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi, hər şeydən əvvəl, bəhs olunan mövzunun ilk dəfə ciddi, sistemli araşdırmaya cəlb olunması ilə şərtlənir. Tədqiqat işində 1991-2011-ci illərdə yaranmış Azərbaycan bədii nəsrində qoyulan mövzu, problematika, bədii konflikt, obraz yaradıcılığı milli məsələlər fonunda araşdırılmışdır. Milli istiqlal savaşının bədii inikasını verən ədəbi mühit, bədii nümünələr ümumiləşdirmələr aparmaqla tədqiq edilmişdir. Milli-mənəvi kökə qayıdış, özünüdərkin oyanışı poeziyada müəyyən qədər işlənilmişdir. Lakin nəsr haqqında bunu demək mümkün deyil. Tədqiqata cəlb olunan dövrdə yaranan ədəbi nümunələr ilk dəfə küll halında araşdırmaya cəlb edilmiş və onların ədəbi prosesdə rolu xüsusi qeyd edilmişdir.

Tədqiqatın orjinallığını şərtləndirən məqamlardan biri burada bəhs olunan dövrün bədii nümunələrinin əvvəlki onilliklərdə yaranmış mövcud bədii örnəklərlə müqayisəli şəkildə təhlilə cəlb olunmasıdır. Bu isə təbii olaraq dövrün ədəbi prosesini bütöv şəkildə dəyərləndirmək imkanı verməkdədir.

Dissertasiyanın elmi yeniliyini səciyyələndirən digər mühüm aspekt mövcud bədii örnəklərin yalnız estetik prinsiplər fonunda deyil, müəyyən məqamlarda sosioloji kontekstdə şərh edir, bu isə çağdaş ədəbi prosesi hərtərəfli dəyərləndirilməsinə kömək edir. Ədəbi materiala bu cür yanaşma sənətkarlıq məsələləri ilə yanaşı, bədii düşüncənin cəmiyyət həyatına nə dərəcədə bağlı olduğunu əks etdirir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. "Müstəqillik dövrü Azərbaycan bədii nəsrində istiqlal problemi (1991-2011-ci illər)" tədqiqat işi ilk dəfə nəsr nümunələrində araşdırılıb tarixi

gerçəkliyin bədii həqiqətə çevrilməsi, müstəqil Azərbaycanın taleyi haqqında həqiqətlərin gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Dissertasiya mövzusunun aktuallığı, yenilikləri və əldə edilmiş elmi nəticələri həm nəzəri, həm də elmi-praktik əhəmiyyətə malikdir. Tədqiqatın nəzəri əhəmiyyəti müstəqillik dövrü bədii nəsri ilə bağlı sonrakı tədqiqatlar üçün də müəyyən zəmin yaratması ilə bağlıdır.

İşin praktik əhəmiyyəti həm də ondadır ki, ilk dəfə olaraq 1991-2011-ci illəri əhatə edən bədii nümunələrdə istiqlal ideyaları və milli müstəqillik uğrunda mübarizə bədii nəsrdə, hekayə, povest və romanlarda tədqiqata cəlb edilmişdir. Onun nəticə və materiallarından ədəbiyyatşünaslıq, ədəbyyat nəzəriyyəsi , ədəbi tənqid və s. həsr olunmuş tədqiqatlarda qaynaq kimi yararlanıla bilər.

Dissertasiya işi metodoloji aspektləri, təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma formaları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşıyır.

Tədqiqat işindən həmçinin müxtəlif ali məktəblərin humanitar fakültələrininin bakalavr və magistr pillələrində ümumi və xüsusi kursların tədrisində köməkçi vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiya işi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin nəzdində fəaliyyət göstərən Problem Şurada qeydiyyatdan keçmiş, "Təfəkkür" Universitetinin Filologiya elmləri kafedrasında hazırlanaraq yerinə yetirilmişdir. Tədqiqatın nəticələri respublikada çıxan müxtəlif məcmuə, toplu və jurnallarda ("Pedaqoji universitet xəbərləri", "Əlyazmalar yanmır", "Filologiya məsələləri" və s.) və xaricdə dərc olunmuş məqalələrdə, habelə elmi konfranslarda oxunmuş məruzə və çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş (9976 ş.i.) üç fəsil (I fəsil – 65744, II fəsil – 40444, III fəsil – 99552 ş.i.), nəticə (12037 ş.i.) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 227 753 şətri işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, araşdırmanın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, tədqiqi və quruluşu barədə məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycan ədəbiyyatında istiqlal mövzu-problem diskursu"** adlanır. Nəzəri qənaətlərdən çıxış edərək dissertasiyanın tələblərinə uyğun şəkildə 1991-2011-ci illərdə yaranan hekayələri problematik cəhətdən səciyyələndirərək təhlillərin aşağıdakı istiqamətdə aparılmasına çalışılmışdır.

1. Azərbaycan ədəbiyyatda istiqlal probleminin işlənmə tarixi;
2. Azərbaycan hekayəsində istiqlal mübarizəsinin bədii inikası;
3. Cağdaş hekayələrdə Qarabağ müharibəsi mövzusu.

Bölgü araşdırmanı bu konteksdə daha sistemli, mövzu və problematika axtarışlarını üzə çıxarmaq baxımından səciyyəvidir.

**"Azərbaycan ədəbiyyatında istiqlal probleminin işlənmə tarixi"** adlı paraqrafda istiqlal mübarizəsinin ədəbiyyatın predmeti olması, onun azadlıq hərəkatına verdiyi töhfə dəyərləndirilir. Bu dövrün ədəbi əsərləri xalqın özünüdərk şüurunu, vətənpərvərliyini, müqavimət ruhunu əks etdirən mühüm sənədlərdir. Nəsrin müxtəlif janrlarında mübarizə tarixini özünə mövzu seçən əsərlər bir millətin müstəqillik və azadlıq üçün mücadiləsini, cəmiyyətin bu istiqamətdəki təcrübələrini və tarixi hadisələri əks etdirərək, oxucunu təsiri altına salıb keçmişini milli kimliyini xatırlaması araşdırılır. Müstəqilliyin ilk illərində mətbu orqanlar sırf milli ideologiyaya söykənərək kütləvi maariflənməyə, bu ideal uğrunda mübarizəyə səsləyir. Dövrün dərgilərində Anar "Müstəqilliyin şirin xülyası", Mürşüd Məmmədli "Xalqın nicatı və ədəbiyyat", "Yeni təfəkkür, yeni baxış", Maqsud Fərhadoğlu "Özünüdərk üçün", Şamil Zaman "Azadlıq carçısı", Yaşar Qarayev "Əvvəl sözlər azadlığını itirir,

sonra adamlar" və s. kimi başlıqlı yazılara tez-tez rast gəlirik. Lakin dövrün ictimai-siyasi ab-havasını əks etdirməyə çalışan, ədəbiyyatı ətalətdən qurtaran poeziyaya dəstək üçün tək-tük nəsr nümunələri yarandı. Daha sonra Xəlil Rza Ulutürkün "Lefortovo zindanında" adlı memuarı, İlyas Əfəndiyev "Tənha iydə ağacı" (1991), "Hökmdar və qızı" (1991), Əli Əmirlinin "Ağqoyunlular və Qaraqoyunlular" dramları təhlilə cəlb olunaraq janrından asılı olmayaraq meydana gələn əsərlərə tarixi-siyasi şəraitin birbaşa təsiri araşdırılır. Məsələn, *"Xəlil Rza Ulutürkün azadlıq mübarizəsində fəal iştirakı, həmvətənlərinin istiqlal savaşından yaxından iştirak etməsi üçün çağırışları və bu yöndəki fəaliyyəti çox dəyərlidir. Onun tarixlə bağlı zəngin biliyi, fenomenal mübarizə ruhu, repressiyalar görmüş şüuraltı yaddaşı böyük istiqlal üçün mübarizəyə ruhi ilə bərabər səsləyişi əsərlərinə də siraət edirdi. Bu məziyyətləri bütün əsərlərində olduğu kimi "Lefortovo zindanında" adlı əsərində də görmək olur. X.R.Ulutürk bu əsərdə apardığı mücadiləni "Bu mübarizə milli suvrenlik, Azərbaycan türkcəsi, fikir, vicdan azadlığı uğurunda gedən mübarizədir, istismara sümürgəçiləyə son qoymağa çağıran möhtəşəm xalq hərəkatıdır" [117. s. 36] deyə qiymətləndirir"*[14].

**"Azərbaycan hekayəsində istiqlal mübarizəsinin bədii inikası**" adlı ikinci paraqrafda tədqiqata cəlb olunan dövrün ədəbi prosesində hekayə janrı yenə də öz mövzuları, obrazlar aləmi, ideya-bədii xüsusiyyətləri, romandan və povestdən fərqli olaraq problemin, ideyanın qoyuluşunda, onun bədii həllində çevik düşüncə tərzi nümayiş etdirməsi ilə diqqəti çəkir. Xalqın yadelli təzyiqlərdən yaxa qurtarmaq yolunda göstərdiyi direniş, apardığı istiqlal mübarizəsi ədəbi nümunələrdə bu və ya digər dərəcədə öz əksini tapmışdır. Təcrübəli qələm sahibləri ilə yanaşı, ədəbiyyata yeni gələn yazıçıların da əsərlərində məfkurə savaşına hazırlığı görmək mümükündür. S.Əhmədlinin "Yanvar

---

[14] Huseynzade, V Hıstory of the development of natıonal ındependence theme ın Azerbaıjanı lıterature // Сборник статей по итогам Международной научно-практической конференции, – Стерлитамак: – 30 июня, – 2023. – с. 282

hekayələri" (1990-1991), İ.Sıxlının "Qətl" (1991), F.Uğurlunun "Yol içində kötüklər"(1991), Ə.Səmədlinin "Qara bulud", İ.Əfəndiyevin "Qaçaq Süleymanın ölümü" (1993), M.Vəzirin "Üçüncü ildönüm" (1995), A.Rəhimovun "Canavar balası" (1996) və başqa hekayələri müstəqilliyin ilk illərində bu mövzuda yazılan bədii nümunələr hesab edə bilərik. Bəhs olunan dövrün hekayələrində verilən tarixi faktlar bir daha sübut edir ki, daim öz istiqlalı üçün çarpışan bir millət naxələf, soysuz insanların xəyanətinə tuş gələrək azadlığını itirir. Məsələn, Ə.Səmədlinin "Qara bulud" hekayəsi retrospektiv xarakter daşıyaraq tarixi faktlat fonunda oxucuya təqdim olunur. "*Düşmən güclü olmaqla çox hiyləgərdir... Mən böyük Şeyx Nizamisi, Babəki, Cavanşiri olan bir xalqın adını batıra bilmərəm.*"[15] Müəllif təhkiyəsindən uzaq Cavad xanın dilindən səslənən bu fikirlər oxucuda psixoloji gərginliyi daha da artırır ki, bu da oxucunun təfəkürünün, idrakının təkamülündə, mənəvi aləmində yeni səhifə açmağa sövq edir.

Araşdırmaya cəlb olunan əsərlər onu göstərir ki, cəmiyyət üçün, dövlətçilik üçün ən mühüm məsələrdən olan istiqlal və onun bədii həllinin açılmasına çalışılmışdır.

I Fəslin **"Çağdaş hekayələrdə Qarabağ müharibəsi mövzusu"** adlı üçüncü paraqrafında Azərbaycanda gedən ictimai-siyasi proseslərin fonunda ədəbiyyatın hədəfindəki milli istiqlal təbliğatının yanında Qarabağ müharibəsi də boy göstərdi. Yeni dövr ədəbi mühitində, dövrün tələbindən irəli gələn təbəddülatların toqquşması, çarpazlaşması diqqəti çəkir. Lakin bu toqquşmanı yumşaldan nüans vətəndaşlıq mövqeyidir. Ədəbiyyatda kəmiyyətin keyfiyyəti üstələdiyi bir dövrdə Qarabağ mövzusu 90-cı illərdən bəri milli zəminə söykənərək günümüzə qədər gəlmişdir. Qarabağ müharibəsi ideoloji əsasa deyil, milli zəminə söykənsə də, münaqişənin dərinliyi, ermənilərin türkə nifrət ruhunda tərbiyə olunaraq onları yer üzündən silmək istəyi milli ideologiyaları kimi formalaşmışdır. Bu baxımdan onların apardıqları müharibə belə axmaq, nasist ideologiyaya söykəndiyi

[15] Səmədli, Ə. Hekayə // - Bakı: Azərbaycan jurnalı, - 1992. №5-6, - s.134.

halda Qarabağ müharibəsi mövzusu da ideologiyaya çevrilməsi ədəbiyyatda qələmə alınan mövzuları ictimai-siyasi mühit və ondan doğan tələblər yaradır. Şəraitdən, zamanın tələbindən yaranan əsərlər ən çevik janr kimi hekayələr vasitəsilə oxucuya çatdırılır.

Çağdaş dövrün nasirlərindən Elçin, Orxan Fikrətoğlu, Firuz Mustafa, Mübariz Cəfərli, Elçin Hüseynbəyli, Abbas Abdulla, Kamil Əfsəroğlu, Nəriman Əbdürrəhmanlı, Şərif Ağayar, Azad Qaradərəli, və b.-nın hekayə yaradıcılığında müharibə insanının, məişəti, psixologiyası diqqət mərkəzində saxlanılır. Tədqiqata cəlb etdiyimiz dövrə nəzər yetirərkən çağdaş ədəbiyyatda müharibə mövzusu 2000-ci illərə nisbətən 90-cı illərdə daha az işləndiyini görürük. Düşünürük ki, müharibə gedən bir ölkədə hadisələrin isti-isti qələmə alınmamasının müəyyən səbəbləri vardır. Bu dövrdə yaranmış əsərlərdə müharibə şəraitinin uzanması səbəbilə yazıçılar müharibənin ayrı-ayrı məqamlarını əks etdirməyə çalışırdılar. Məsələn, E.Hüseynbəylinin “Gözümə gün düşür” hekayəsi mükəmməl kompozisiyası, psixoloji məqamların təsviri ilə diqqəti cəlb edir. Əsərin qəhrəmanı sağalmaz xəstəliyə düçar olan həkimin xəstəliyi ilə mübarizəsi fərqli şəkildə təqdim olunur. Qəhrəman fiziki deyil, mənəvi ağrıları, yaraları ilə mübarizə aparmaq üçün bütün gücünü səfərbər edir. Onun istəyi işğal altında olan doğma kəndində ölməkdir. Süjetdə müəllif qəhrəmanının simasında xalqının etnik psixologiyasını təqdim edir. Dövrün yazılmış hər bir bədii nəsr nümunəsində Qarabağ mövzusu psixoloji speksiyadan o tərəfə keçə bilmir. Bu mövzudakı əsərlərin əksəriyyətində mücadilə, mübarizə mərkəzdə dayanır.

Dissertasiyanın ikinci fəsli isə **“Povestlərdə istiqlal məsələsi”** adlanır. Dissertasiyanın tələblərini nəzərə alaraq bu fəsildə 1991-2011-ci illərdə yaranmış bədii nəsr nümunələrini povest janrının problematik cəhətini səciyyələndirərək təhlilinə çalışılmışdır. Povest janrı roman janrı ilə müqayisədə məlum dövrdə (1991-2011) yüksələn xətt üzrə inkişaf edir. İstiqlal məfkurəsi ictimai şüurun forması hesab olunan ədəbiyyatda təşəkkül taparaq millətin özünütəsdiq faktoruna çevrilir. Bu

fəslin tədqiqatı iki istiqamətdə aparılaraq aşağıdakı kimi adlandırılır.

1. Tarixi gerçəklik və tarixi reallığın epik planda bədii ifadəsi;

2. Povestlərdə vətən, xalq və milli dövlətçilik ideyalarının qoyuluşu.

Bölgünün bu istiqamətdə verilməsi ədəbiyyatın milli dəyərlər kontekstində tədqiqata cəlb olunma imkanlarını genişləndirir. Qələmə alınmış bədii örnəklər dövrümüzün milli, sosial-siyasi və mənəvi-əxlaqi mənzərəsinə işıq tutduğu üçün bu janrın xüsusi təhlil obyektinə çevrilməsi aktuallıq kəsb edir.

**"Tarixi gerçəklik və tarixi reallığın epik planda bədii ifadəsi"** adlı paraqrafda qələmə alınmış bədii örnəklər dövrümüzün sosial-siyasi-tarixi və mənəvi-əxlaqi mənzərəsinə işıq tutduğu üçün bu janrın xüsusi təhlil obyektinə çevirməyə ehtiyac vardır. *"...Azərbaycanda həqiqətən milli-etnik partlayış baş verdi. Bu konkret halda xalqın istiqlal mübarizəsi Azərbaycanın böyük istiqlal ədəbiyyatı ilə hazırlanmış oldu. Və əvvəlki iki-üç on ilin bədii enerjisi xalqın meydanda daşan və kükrəyən enerjisinə çevrildi."*[16]

Bu paraqrafda Ə.Cəfərzadənin, Z.Qarayevin, Ə.Nicatın, M.Çəmənlinin əsərləri tədqiqə cəlb edilərək təhlil olunmuşdur. Yazıçılar cari dövrdə real faktlara söykənərək mükalimələri uzun illər tarixin qaranlığıda qalan gizlədimiş tarixə bir növ işıq tutmaq üçün təqdim etməyə çalışmışlar. Məsələn, M.Çəmənlinin "Ruhların üsyanı" povestində detalları dəqiqliklə, incəliklə araşdırıb ortaya çıxartmağa çalışır, lakin bu da bəzən səthiliyə, primitivliyə, təhrifçiliyə gətirib çıxarır. Sənətkarlıq baxımından dövrün ədəbi-nəzəri fikrini cəlb edən əsərlərdən olan "Bəla" povestində müəllif Ə.Cəfərzadə tarixi hadisələri olduğu kimi yazıya alma, lakin mahiyyətini, ruhunu ifadə etməyə çalışmışdır. Əzizə Cəfərzadənin tarixi mövzuda qələmə aldığı "Bəla" (2001) povestində Səfəvi hökmdarı Şah İsmayıl sülaləsindən olan

---

[16] Qarayev, Y. Əcdadın yaddaş harayı: Halallıq // Ədəbiyyat qəzeti. – 1997, 31 yanvar. - s.4

Məhəmməd Xudabəndənin səltənəti illərində İranda türk və fars tayfa birlikləri arasında gedən gizli və aşkar mübarizələrdən bəhs edir. Povestdə Məhəmməd Xudabəndənin xanımı Məhdi-Ülyanın İranı farslaşdırmaq uğrunda apardığı mübarizələri və bu siyasətin acı nəticələrini on plana çəkmiş, hadisə və əhvalatları bu kontekstdə aşkarlamağa çalışmışdır.

Ə.Nicatın tarixi mövzuda qələmə aldığı "Rza xan" (2010) povestində bütövlükdə Azərbaycanın Güneyində - İran imperiyasında yaşayan Azərbaycan türklərinin taleyi, ağır həyatı diqqət mərkəzində dayanır. Yazıçı Azərbaycan xalqının belə duruma düşməsinin sosial-siyasi səbəblərini araşdırır və bunun köklərini milli düşüncənin zəifliyində və siyasi iradənin olmamasında axtarır. Belə ki, yazıçı bəzi məqamlarda hadisə və əhvalatların epik təsvirini canlandırır, bəzən isə dövrün tarixi-siyasi prosesi haqqında publisistik şəkildə düşüncələrini əks etdirir. Əlbəttə, bu cəhət əsərin bədii keyfiyyətinə müəyyən qədər xələl gətirir. Lakin problemin son dərəcə aktuallığı nəzərə alınarsa, bu barədə yazıçıya müəyyən qədər bəraət qazandırmaq olar.

Tarixi mövzuda qələmə alınmış Z.Qarayevin "Kürü keçdilər" əsərində XVIII əsr Qarabağ xanlığının tarixi fonunda Azərbaycanda cərəyan edən hadisələrin bədii təsviri verilmişdir. Faktlar və sənədlər əsasında yazılmış povestdə Pənah xan, Çələbi xan, Kazım xan, Heydərqulu xan, İkinci İrakli və başqaları kimi tarixi şəxsiyyətlərin obrazları yaratmışdır. Povestin mövzu aktuallığını səciyyələndirən əsas cəhət onun bu günün hadisələri ilə səsləşməsidir.

**"Povestlərdə vətən, xalq və milli dövlətçilik ideyalarının qoyuluşu"** adlı paraqrafda isə povestlərin iyirmi illik tarixinə nəzər yetirilir. 90-cı illərin əvvəllərində xalqın tarixi yaddaşını silkələyib oyadaraq onu yurd-yuva savaşına səsləyən əsərlər yaranırdı. Bu istiqamətdə yazılan əsərlərdən İ.Məlikzadənin "Qırmızı Şeytan", F.Qocanınn "Qarlı, qanlı qərənfillər", V.Babanlının "Ana intiqamı", Elçinin "Bayraqdar", Anarın "Ağ qoç, qara qoç" povesti maraq doğurur. Məsələn, İ.Məlikzadənin "Qırmızı Şeytan" povestində müəllif uzun illərdən bəri

daxilindəki qəzəbini, etirazını, yaşadığı cəmiyyətdən narazılığını bədii sözlə ifadə etdi. Povestdə tarixin iki kəskin dönəmi—Sovet imperiyasının süqutu zamanı törətdiyi qanlı cinayətlər üzərindən yetmiş il keçməsinə baxmayaraq əvvəlkinin oxşarıdır. Əsərdəki zaman paralelliyi, hadisələrin oxşarlığı və təkrarlanması xalqı milli oyanışa səsləyir. Əsərin süjet xətti milli yaddaş və onun bərpası üzərində qurulmuşdur. 1920-ci ildə xalqın boğazına çöküb məhv etməyə çalışan “qırmızı buynuzlu şeytan” yetmiş ildən sonra yenidən qayıtmışdır.

Dissertasiyanın III fəsli **“Çağdaş Azərbaycan romanında özünəqayıdış və özünüdərk məsələlərinin ön plana çəkilməsi”** adlanır. Müstəqilliyin ilk iyirmi ilində istiqlal mübarizəsinə səsləyən insanları vətən, xalq, milli düşüncə kimi məsələlərlə milli oyanışa səsləyən əsərlər kifayət qədərdir. Bu fəsildə dissertasiyanın qoyduğu tələbləri nəzərə alaraq dövrün romanlarının bir neçəsi tətdqiqata cəlb olunaraq iki istiqamət üzrə paraqrafa bölünmüşdür:

1. Çağdaş Azərbaycan romanlarında milli yaddaş, tarixilik və bədii təxəyyül;
2. Müasir Azərbaycan romanlarında gerçəklik və paralel tarix.

Dissertasiyanın **“Çağdaş Azərbaycan romanlarında milli yaddaş, tarixilik və bədii təxəyyül”** adlı paraqrafda müstəqillikdən sonra etnomədəni sistemin mahiyyətinin açılması istiqamətində ədəbi-mədəni və ideoloji prosesdə gedən məzmun dəyişikliyini, ümumi mənzərəni aydınlaşdırmaq baxımından sistemli təhlillər aparılmışdır. İ.Şıxlının, “Ölən dünyam”, K.Abdullanın “Yarımçıq əlyazma”, S.Rüstəmxanlının “Difai fədailəri”, N.Mənurinin “Qaraçuxa”, Y.Oğuzun “Nadir şah” kimi romanları təhlilə cəlb edilərək xalqın sosial-siyasi yaşantılarını, apardığı istiqlal mücadiləsinin bir hissəsini özündə ehtiva edən əsər kimi öyrənilir.

Bu baxımdan İsmayıl Şıxlının yaradıcılığı xüsusi qiymətləndirilməlidir. “Dəli Kür“ romanında olduğu kimi “Ölən dünyam” romanında da əsərə özəllik verən bədii keyfiyyətlərdən başlıcası məhz milli-mənəvi dəyərlərin realistcəsinə təsviridir. Romanda tayfa-tirə düşmənçiliyinin təsviri fonunda milli-

patriarxal həyat tərzinin, milli-mənəvi dəyərlərin bədii təcəssümü xüsusi önəm daşıyır. Yazıçının yaradıcılığının leytmotivini təşkil edən milli-əxlaqi dəyərlərin bədii əksi, xalqın mili-mənəvi mövcudluğundan xəbər verən atrubutlardan geniş istifadə "Ölən dünyam" romanı üçün də xarakterikdir. Müəllif retrospektiv təhkiyə üsulu ilə paralel zamanlar arasında qarşılaşdırma apararaq iki nəslin faciəvi taleyi fonunda bütövlükdə ictimai-siyasi prosesləri və ümumilikdə, Azərbaycan tarixinin ən mürəkkəb bir dövrünün səciyyəsini verir.

Nasir Mənzurinin "Qaraçuxa" (1995) romanı da böyük tarixi dövrü dəyərləndirmək baxımından xeyli dərəcədə fərqli və maraqlı nümunədir. Yazçı romanda cənubi Azərbaycanda xalqın istiqlal uğrunda milli mübarizəsini alışılmış Azərbaycan bədii təhkiyə üslubundan xeyli dərəcədə fərqlənən maraqlı təhkiyə üsulu ilə oxucuya çatdırır. Müxtəlif folklor nümunələri əsasında maraqlı süjet təqdim olunur. Müəllif məqsədə çatmaq üçün istifadə etdiyi priyomlar sanki sağ göstərib sol vurur. "*Bütün bu Azərbaycan mahalında üç dənə qızlar qızı tapılıb. Üç dənə "qızlar" tapılıb. Azca dayandı genə dedi:*
*Hər qıza "qızlar" deməzlərki. Bütün bu mahallarda üç dənə "qızlar" tapılıb. Üç dənə cüvanəzən, üç gəlin, üç dənə el dayağı, ürəklərə od yaxan tapılıb. Bağrı dağlanmış, al yanaqlı yaz laləsi deyim. Maral körpəsi, dağlar balası, ala gözlü dəli ceyran deyim. Bütün bu Azərbaycan mahalında üç dənə qızlar qızı tapılıb. Dördüncüsü yox...*"[17]

Müəllifin etdiyi manevrlər yaşadığı ictimai siyasi mühitin təsirinin nəticəsidir. Müəllifin əsərdəki tərifli qızları əslində hərəsi özlüyündə böyük istiqlal mübarizəsi və qəhrəmanlarıdır. Ona görə də sənətkar onları simvolik olaraq cəmdə işlədir. Azərbaycanı diyar, məmləkət, yurd yox məhz mahal adlandırması cənubi Azərbaycanın hazırki İranın bir mahalı olması reallığından irəli gəlir. 1828-ci il "Türkmənçay" müqaviləsinə əsasən Azərbaycanın ikiyə bölünməsindən sonra

---

[17] Əliqızı, A. Cənubi Azərbaycan ədəbiyyatı müntəxəbatı / A.Əliqızı. - Bakı: Bakı Universiteti nəşriyyatı, – 2003. – s.376

güney Azərbaycanda üç böyük istiqlal mübarizəsi nəticəsində hərəkət meydana gəldi: 1905-1911-ci illərdə Səttərxanln başçılığı ilə Təbrizdə milli azadlıq hərəkatı ("Məşrutə hərəkatı"), 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Təbriz üsyanı. 1945-ci ildə Milli Hökumətin qurulması ilə nəticələnən 21 Azər hərəkatı meydana gəlib. Yazıçı əsərdə xalqın mübarizəsini təqdim edə bilmək üçün mücadiləyə heç bir aidiyyatı olmayan xalq əfsanələri fonunda təsvir edir.

Müstəqilliyin gətirdiyi problemlər ədəbiyyatı yeni mövzularla təmin etdi. *"Bədii ədəbiyyat tarixdən çox oxunur, buna görə də onun düzgün və obyektiv mövqeyi daha vacibdir. Bu tələblərə cavab verməyən əsərlər sadəcə olaraq mövzunu korlamaqla qalmır, dövrə yanlış münasibət yaratmaqla zərərli bir şey kimi ortaya çıxır."*[18] Bu baxımdan K.Abdullanın "Yarımçıq əlyazma " əsəri xüsusi diqqət çəkir. K.Abdulla yazıçı kimi xalqın təfəkküründə, şüuraltı yaddaşında uzun zamandır yer alan inancların fərqindədir, buna görə də obrazları, süjet xəttlərini yeni variantda təqdim etməyi üstün tutur. Əsərdəki hadisələri müəyyən qədər komikləşdirib postmoderinizmin priyomlarından istifadə edərək bir çox hadisələri komik şəkildə verir. Müəllif romanı Milli Əlyazmalar İnstitutunda tapılan qədim əlyazma nüsxəsi kimi təqdim edir və romanı tarixi məcrada davam etdirərək əhvalata oxucunu inandırmağa çalışır. Bu çağdaş Azərbaycan bədii ədəbiyyatına yeni rakursdan baxış idi.

*"Bu gün bütün dünyada mənəvi köklərə qayıdış hiss olunur. Artıq millətindən asılı olmayaraq hamı dərk edir ki, mənəvi əsaslara söykənməyən cəmiyyət gec-tez iflasa uğrayır. Bunu dərk etdikləri üçün hər kəs soykökünü öyrənmək, araşdırmaq həyata tətbiq etməklə mənəvi çürümənin, mənəvi tənəzzülün qarşısını almağa çalışır."*[19] Milli kimliyini,

---

[18] Kazımov, Q. Sənət düşüncələri/ Q.Kazımov. - Bakı: Azərbaycan Dövlət Kitab Palatası, - 1997. - s. 68

[19] Əliqızı, A. Yazıçının şəxsiyyət və bədii həqiqət axtarışları. Müasir ədəbiyyat məsələləri / A.Əliqızı. - Bakı: Elm və təhsil, - kitab 1. -2010. - s.42

mahiyyətini bilmək, milli yaddaşı qorumaq və zənginləşdirmək üçün tarix haqqında məlumatlı olunmalıdır. Müəllifin soykökə qayıdış, milli şüurun oyatmanın yolu kimi mövzuya müraciət etdiyi qənaətindəyik.

Tarixi həqiqətləri yenidən xatırlamaq və milli mücadilənin keçəcəyi yolu dəqiq cızmaq baxımından xüsusi əhəmiyyətə malik əsərlərdən biri də S.Rüstəmxanlının "Difai fədailəri" romanıdır. Roman həm düşüncə, həm də istiqlal hərəkat tarixində ilk imza sahiblərindən Əhməd Ağaoğlu və onun fəaliyyəti haqqındadır. Romanda Ə.Ağaoğludan başqa, digər milli ictimai-siyasi fikir sahibləri, millətini canı qədər sevən düşüncə insanları, Əli bəy Hüseynzadənin, Əlimərdan bəy Topçubaşovun, milyonçu Hacı Zeynalabdin Tağıyevin, Məhəmməd Əmin Rəsulzadənin gənclik siluetini görürük. Əsər boyu Azərbaycanın istiqlal uğrunda mübarizə aparan ideoloqlar, bu davanı yalnız siyasi çərçivədə deyil, həmçinin mədəni-kulturoloji aspektdə dərk etmələri üçün milli-mənəvi xəzinənin təbliğinə mühüm yer ayırırdılar.

Ə.Nicatın "Mələklər və İblislər" romanında da milli istiqlal məfkurəsini ön plana çəkərək istiqlala, azadlığa can atan cümhuriyyət tərəfdarları — Mələklərlə, cümhuriyyət əleyhdarları — İblislərin qarşılaşması fonunda xeyirlə şərin mübarizəsi əks olunur. Ona görə də müəllif, Cəfər Cabbarlı, Abdulla Şaiq, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev kimi yaddaqalan obrazlar yaradaraq savadlı, istedadlı insanların amalları uğrunda mübarizəsi, üzləşdiyi çətinliklər oxucuya təqdim olunur. Tarixi reallığı nəzərə alaraq müəllif romanı kədərli sonluqla yekunlaşdırır. Nə qədər çətin və dözülməz vəziyyətdə olsa da, bir ölkə vətəndaşı olaraq vətənin, millətin istiqlaliyyəti uğrunda canlar bahasına mübarizədən əl çəkməməli, bütövlükdə xalqa qarşı mübarizə aparan, oyunlara aldanmamalı, onları əsarətə sürükləyənlərə qarşı, bir olmanın mesajını oxucu bu əsərdən almış olur.

Üçüncü fəslin **"Müasir Azərbaycan romanlarında gerçəklik və paralel tarix"** adlı ikinci paraqrafında isə konkret tədqiqat obyekti kimi götürdüyümüz iyirmi illik zaman müddətində yazılmış romanlardakı vətən, xalq, müharibə mövzularını bütünlükdə mahiyyət etibarilə bir məsələnin həllinə, ədəbiyyatın millətə qarşı yönəldilmiş haqsızlığa etirazını ortaya çıxmasına xidmət edir. Problemlər zamanın

konkret ümumi mənzərəsindən doğan reallıqlar əsasında saf-çürük edilərək, daha sonra vətən, xalq, müharibə mövzuları milli-mənəvi dəyərlər milli istiqlal ideyaları kontekstində təhlilə gətirilir. S.Əhmədlinin "Axirət sevdası", A.Abbasın "Dolu", E.Mehrəliyevin "90-cı illər" romanları təhlil olunur.

Tədqiqata cəlb olunan dövrdə yaşanan kontraslı ictimai-siyasi hadisələr ədəbiyyata öz zərbəsini vururdu. Zamanın sınağından keçmiş söz ustaları bu zərbələrə davam gətirərək yeni əsərlər yaradırdılar. Yazıçı S.Əhmədlinin "Axirət sevdası", "Kef", "Ömür urası" kimi romanlarının daxil edildiyi "Qarabağ trilogiyası"nda gənc nəslin inkişafı və formalaşması naminə cəmiyyətin düşüncəsini məşğul edən məsələlər qabardılmışdır. Hər üç romanda həyata, insan taleyinə, cəmiyyətin problemlərinə fərqli, orjinal prizmadan yanaşmış, cəmiyyətin inkişaf meyillərini sözlərdən istifadə etməklə canlı həyat səhnələri yaratmaqla sözünü, fikrini catdıra bilmişdir.

Qarabağ mövzusu çağdaş dövr Azərbaycan yazıçılarını millətimizə qarşı yönəldilmiş haqsızlıqlara fəal vətəndaşlıq mövqeyindən birləşdirir. Problemin forma-struktur baxımından 1990-cı illərlə müqayisədə mövqeyini nəinki itirmək, əsərdən əsərə, müəllifdən müəllifə keçdikcə inkişafı, təkamülü müəyyənləşdirilsə də keyfiyyət hələ də istənilən səviyyədə deyil. *"Ədəbiyyatımız hələ də siyasətdə və hərbdə olduğu kimi Qarabağ dərdini nəinki çözməkdə, hətta ifadə etməkdə gücsüzdür. Qarabağ insanı öz qarabağlı taleyinin fəlakətlərini şahidi olduğu, iştirak etdiyi, acısını daddığı müharibənin şəklini, obrazını, xarakter və ifadəsini dünya ədəbiyyatında, məsələn, Antuan de Sent-Ekzüperinin, Lev Tolstoyun, Albert Kamyunun, Ernest Heminqueyin, Con Steynbekin, İvo Andriçin əsərlərində daha çox tanıyır, yaşayır və hiss edir, öz halı ilə psixoloji ovqat ortaqlığı, paralelləri tapır, nəinki öz əsərlərimizdə..."*.[20]

Qələmə alındığı dövrdə həllini tapmayan Qarabağ müharibəsi haqqında yazılan romanlardan biri kimi A.Abbasın "Dolu" əsəri siyasətdə uduzulmuş müharibəni əks etdirən nəsr nümunəsidir. Qarabağ müharibəsi əslində ideoloji əsasa deyil,

[20] Musayeva, İ. Yeni romanlar- mənzərə, yoxsa görüntü...// - Bakı: Azərbaycan jurnalı, - 2015. №10, - s. 38.

milli zəminə söykənirdi. Bu müharibə Azərbaycan türklərinin ermənilər tərəfindən soyqırımı şəklində həyata keçirilirdi. Lakin bu qəzəb, düşmənə nifrət, mərhəmət hissinə qalib gələ bilmir. Düşmənin qəddarlığı, amansızlığı dolu şəklində günahsız insanların üstünə yağır.

Tarixi faktlara söykənən roman Qarabağ müharibəsi dövründə Dünyanın Ən Varlı Şəhərində və ümumilikdə Azərbaycanda cərəyan edən hadisələri əks etdirir. Əsər iki zamana - müharibə və Ağdamın işğalından sonra cərəyan edən real tarixi –siyasi hadisələrə işıq salır.

Elçin Mehrəliyev ədəbiyyatda müharibə mövzusunu araşdırarkən haqlı olaraq deyirdi ki, *"Müharibə harada baş verməsindən asılı olmayaraq milli hadisə deyildir. Qarabağ konfliktinin artıq dünya ictimaiyyətin probleminə çevrilməsi bununla bağlıdır. Bu isə ədəbiyyatın yeni, daha ciddi yaradıcılıq vəzifəsini — Qarabağ uğrunda xalqımızın ədalətli mübarizəsini əsrin müharibə əleyhinə hərəkatı səviyyəsindən dərk etmək vəzifəsini müəyyənləşdirir."*[21]

Ölkədə gedən müharibə daha çox bu şəhərdə, Dünyanın Ən Varlı Şəhərində, ümumilikdə Qarabağda hiss olunur. Sanki bu müharibə iki dövlət arasında deyil bir əyalətlə, Qarabağla Ermənistan arasında gedirdi. Müəllif əsərin təsiredici, sarı simə toxundurucu olması üçün rəmzi ifadə və adlardan məqsədinə uyğun olaraq istifadə etmişdir. Əsərdəki hər bir obrazdan, onun düşüncəsindən, ortaya qoyduğu mövqedən müəllifin diktəsi duyulur. Ümumilikdə dövrün ədəbi sferasına nəzər salanda roman Qarabağ müharibəsi mövzusunda yazılmış əsərlər arasında ən yaxşısı hesab olunur.

Dövrün mənzərəsini özündə əks etdirən başqa bir əsər isə Elçin Mehrəliyevin "90-cı illər" romanınıdır. Romanda ötən əsrin 90-cı illərində, münaqişənin ən qızğın çağlarında cərəyan edən hadisə və əhvalatlar təsvir obyektinə çevrilmişdir. Dövrün sosial-siyasi mənzərəsinin bədii əksinə maraq oyadan əsər, cərəyan

---

[21] Mehrəliyev, E. Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri (monorqafiya) / E.Mehrəliyev. - Bakı: - 2008. - s.210

edən ictimai-siyasi hadisələrinin və müharibənin qızğın dövrlərinin real təsvirlərindən ibarətdir. Dərin ictimai-siyasi mahiyyətə malik olan əsərdə bir ailənin faciəsi fonunda münaqişənin qızğın dövrlərində respublikanın təlatümlü, ağrılı günləri öz bədii həllini tapmışdır.

Ölümü ilə döyüşə, mübarizəyə çağıran ağbirçək ana, Qəmzə Abbas qızı obrazı əsərdə hərtərəfli işlənmiş surətlərdəndir. Hüsnübanu, şagirdlərinə, eləcə də həmkəndlilərinə tarixi öyrətməyə çalışan Mətləb müəllim, Zəriş ümumilikdə xalqı təmsil edirlər. Onlar ölümləri ilə Ümidin yaşamasına, xalqın xilasına səbəb olurlar. Burada Ümid rəmzi mənada xalqın, Vətənin ümidi timsalındadır.

Əsərlərdə qaldırılan müharibə və onun ağır fəsadları təkcə bir dönəm üçün deyil, bütün dövrlərdə müharibənin dağıdıcı izlərinin aktual olması ilə şərtləndiyi qənaətindəyik.

**Nəticədə** tədqiqata yekun vurularaq əldə edilmiş əsas müddəalar və elmi nəzəri qənaətlər ümumiləşdirilmişdir:

- 1991-2011-ci illərdə yaranmış Müasir Azərbaycan nəsrində milli istiqlal məsələsinin qoyuluşu yüksələn xətt üzrə inkişaf edir. Bəhs olunan zaman kəsimi Azərbaycan ədəbiyyatına yeni müşahidə və axtarışlar, kəmiyyət və keyfiyyət dəyişmələri, tarixə, milli-mənəvi kökə dönüm dövrü kimi xarakterizə edilir. Sözün həqiqi mənasında bu dövrdə söz, fikir azadlığı yarandı. Ədəbiyyat bu imkanlardan bacardıqca istifadə etməyə başlayır. Lakin yaradılan imkanlar ədəbiyyata uğurlarla yanaşı naqisliklər də gətirdi. Müstəqillik illərində yaranan Azərbaycan hekayəsi dövrün mənzərəsini ilk və adekvat olaraq əks etdirirdi. Araşdırmaya cəlb olunan əsərlərdə cəmiyyət üçün, dövlətçilik üçün ən mühüm məsələlərdən olan istiqlal və onun bədii həllinin çözülməsinə çalışılmışdır;

- Tədqiqata cəlb olunana dövrdə istiqlal mövzusu dövrün əksər qələm sahibləri, söz ustalarını birləşdirən yeganə mövzudur. Qarabağ mövzusu ədəbiyyatımızın bütün nümayəndələrini millətimizə qarşı yönəldilmiş haqsızlıqlara fəal vətəndaşlıq mövqeyindən birləşdirir. Mövzu forma struktur baxımından 90-cı illərlə müqayisədə əsərdən əsərə, müəllifdən

müəllifə keçdikcə nəinki mövqeyini itirmir, əksinə inkişaf edir. Nasirlərdən Sabir Əhmədli, Anar, Elçin, Orxan Fikrətoğlu, Firuz Mustafa, E.Hüseynbəyli, Mehriban Vəzir və başqalarının hekayə yaradıcılıqlarında müharibə insanının, məişəti, psixologiyası, ümümilikdə müharibə həqiqətinin nə dərəcədə bədii həqiqətə çevrilməsi diqqət mərkəzində saxlanılır. Çağdaş ədəbiyyatda müharibə mövzusu 2000-ci illərə nisbətən 90-cı illərdə daha az işlənmişdir. Müharibə gedən bir ölkədə hadisələrin isti-isti qələmə alınmamasının bir çox səbəbləri vardır. Belə ki, hadisələri yazıçı gözü ilə izləyən sənətkarlar bəlkə də yekun nəticəni gözləyirdilər. Lakin müharibə şəraitinin uzandığını, nəticəsizliyini görüb hadisələrə biganə qala da bilmirdilər. Yaratdıqları əsərlərdə müharibənin ayrı-ayrı məqamlarını əks etdirməyə çalışırdılar;

- Çağdaş Azərbaycan hekayəsi istiqlaliyyət uğrunda mübarizənin bədii əksini verən ən çevik janr kimi görürük. Çağdaş ədəbiyyatda milli istiqlal ideyalarının inikas səviyyəsini müəyyən etmək üçün səciyyəvi olan şəraiti, dövrün xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır. Milli demokratik ruha və istiqlal məfkurəsinə bağlılığın köklərini araşdıraraq, yeni yaranan ədəbi nümunüləri təhlilə cəlb edib, onların əhəmiyyəti müəyyənləşdirilməlidir. Hələ sovet dövründə Azərbaycanın istiqlala doğru irəliləməsi yaranan ədəbi bədii nümunələrdə inikasını tapmışdır. Gələcəkdə yaranan yeni epoxanın mesajı açıq aydın şəkildə əks etdirilirdi. Sonrakı dövrdə, müstəqillik uğrunda mübarizədə də məhz ədəbi nəsil birbaşa fəal iştirak edir;
- Müstəqilliyin ilk illərindən etibarən yaranan hər bir nümunədə milli ruh, milli çalar sezilməyə başladı. Bu illərdə yaradılan bir çox povest örnəklərində milli özünüdərk, vətənpərvərlik, gələcəyə inam motivləri geniş yer tutur. Yaradıcı nəslin yaradıcılıq üslubları, fəlsəfi və ictimai-siyasi görüşləri müxtəlif olsa da, nəticə etibarilə bir məqsədə xidmət edirdi: demokratik, milli-ictimai şüurun təşəkkülünə nail olmaq;
- Azərbaycan müstəqillik aktına imza atdıqdan sonra ədəbiyyatımızda demokratik proseslərin öz bədii həllini tapması ədəbi prosesdə zərurətə çevrilmişdir. Roman janrının imkanları

daha geniş olduğundan dövrün ictimai-siyasi problemlərini daha ətraflı işıqlandırırdı. Bu əsərlərin əksəriyyətinin ortaq mövzusu azadlıq və Qarabağ müharibəsidir. 90-cı illərdə yazılan romanların mövzuları içərisində müharibə və milli vətənpərvərliyin bədii əksi üstünlük təşkil edir. Milli azadlıq və Qarabağ mövzusunun birlikdə işıqlandırılması hər iki problemin eyni zaman kəsiyində tariximizə gəlişi ilə əlaqədardır. Eyni zaman dilimində baş verən hadisələr: sovet qoşunlarının törətdiyi 20 yanvar faciəsi, Ermənistanın zəbt etdiyi torpaqlarımız, xalqımızın azadlıq və müstəqillik yolunda əzmkar mübarizəsi həm müharibə, həm də azadlıq mövzularının paralel işlənməsi ilə nəticələnmişdir;

- Xalqın tarixinə, mədəniyyətinə, dəyərlərinə müasir dövrün tələbləri müstəvisindən nəzər salmaq, milli mənəviyyatımızı bu aspektdən bədii tədqiq obyektinə çevirmək çağdaş Azərbaycan ədəbiyyatının mühüm vəzifələrindəndir. Xalqın çoxəsrlik mənəvi və əxlaqi keyfiyyətlərini, həyat və məişət tərzini, adət-ənənələrini, yadelli işğalçılara qarşı mübarizəsini, ayrı-ayrı dövrlərdə ədəbi-mədəni yüksəlişini öyrənmək baxımından da tarixi mövzuda yazılan bədii əsərlərin xidmətləri az deyil. Dünya ədəbiyyatının örnəklərindən fərqli olaraq Azərbaycan ədəbiyyatı XXI əsrdə də xalqın milli şüurunu oyatmağa, azadlığa və müstəqilliyə gedən yolda güclü ideya-mənəvi qüvvə rolunu oynayır. Bunun üçün tarixi xatırlatmalar, retrospektiv yanaşma xüsusi əhəmiyyət kəsb edir.

**Dissertasiyanın əsas məzmunu və elmi-nəzəri müddəaları aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Ədəbiyyatımızın əsas mövzusu istiqlal // Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları, – Bakı: – 2013, – II cild, – s. 52-54.
2. Azərbaycan hekayəsində istiqlal uğrunda mübarizənin bədii təcəssümü // – Bakı: Pedoqoji Universitetin Xəbərləri, – 2015. № 3, – s.288-292.
3. Böyük tarix, kiçik hekayələrdə // Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materialları, – Bakı: – 2016, – II cild, – s.58-61.
4. Biz hamımız insanıq, biz hamımız eyniyik // – Bakı: Təfəkkür jurnalı, – 2016. №2(11), – s. 20-24.
5. Artistic manifestation of the struggle for independence, Литература в контексти културы (Збірник наукових праць) // – Киев: Міністерство Освіти І Науки України Дніпропетровський Національний Університет імені Олеся Гончара, – 2017. 27(2), – с.64-69.
6. Yaxın uzaq keçmiş ədəbiyyatımızın aynasında // – Bakı: Filologoya məsələləri, – 2017. №9, – s.373-381.
7. Çağdaş Azərbaycan romanında milli məsələlərin təqdimi // – Bakı: Təfəkkür jurnalı, – 2017. №2, – s.57-60.
8. Cümhuriyyətin ağır illərini əks etdirən roman // – Bakı: Əlyazmalar yanmır (elmi məqalələr toplusu). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2018. № 11, – s. 111-116.
9. Художественное выражение исторической реальности в азербайджанской литературе периода независимости // Materials of the IV international scientific conference , – November 7–8, – 2019. – s.59-60.
10. Yaddaşımızın nəsrdən keçən yolu // – Bakı: Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, – 2019. 3 (111), – s. 221-223
11. 1991-2011-ci illər Azərbaycan bədii nəsrində istiqlal məsələsinin bədii inikası // – Bakı: Əlyazmalar yanmır (elmi

məqalələr toplusu), AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2021. №4, – s. 71-79.

12. Hıstory of the development of natıonal ındependence theme ın Azerbaıjanı lıterature // Сборник статей по итогам Международной научно-практической конференции, – Стерлитамак: – 30 июня, – 2023. – 282 с.



Dissertasiyanın müdafiəsi “1” dekabr 2023-cü il tarixində saat 14:00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 53. AZ 1001.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi

Dissertasiya ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “28” oktyabr 2023-il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.10.2023

Kağızın formatı: A5

Həcm: 39250

Tiraj: 100